# Gizli izdivacların aşkar bəlası

## *Son 5 ildə Azərbaycanda nikahdankənar 83 min uşaq doğulub*



**Bu fikirləri XQ-yə eksklüziv açıqlamasında Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa** bildirib. Onun sözlərinə görə, bu, çox ciddi məsələlərdən biridir, eyni zamanda, Azərbaycanda ailə institutunun mövcud vəziyyətini açıq şəkildə göstərir: "Plenar iclasda çıxışım zamanı da bildirdim ki, bu çox ciddi və təhlükəli mövzudur. Azərbaycanda beş ildə 83 min nikahdankənar uşaq doğulub. 9 min uşağı 15-19 yaşlı qızlar dünyaya gətirib. Bu, ailə institutu üçün olduqca böyük problemdir. Biz bu istiqamətdə cəmiyyətdə ictimai müzakirə yaratmalıyıq. Fikirləşməliyik ki, ailə institutunu qoruya biləк. Təsəvvür edin ki, 83 min uşaq valideyni məlum olmayan və ya sənədləşdirilməmiş vəziyyətdədir. Bu nə deməkdir? Bu nəslin yetişməsi üçün kim məsuliyyət daşıyacaq?".

Müqayisə üçün qeyd edək ki, Azərbaycanla qonşu ölkələrdə nikahdankənar doğumla müxtəlif yanaşmalar sərgilənir. Türkiyədə uşaq hüquqları qanunla tam bərabərdir, lakin cəmiyyətin bəzi bölgələrində mənəvi qınaq qalmaqdadır. Cənub qonşumuz İranda şəriət qanunlarına əsasən nikahdankənar doğum "zina" sayılır, qadın və uşaq həm hüquqi, həm də sosial baxımdan ciddi məhdudiyyətlərlə üzləşir. Rusiyada isə əksinə, bu hal geniş yayılıb və sosial norma kimi qəbul edilir. Uşaqlar tamhüquqlu və dövlətin sosial müdafiəsi altındadır. Gürcüstanda qanun liberal olsa da, pravoslav dəyərlər hələ də öz təsirini saxlamaqdadır. Kiçik icmalarda bu hal mənfi qarşılanır. Ermənistanda hüquqi bərabərlik mövcuddur, lakin ənənəvi düşüncə tərzi səbəbindən nikahsız dünyaya uşaq gətirməyə qarşı sosial damğalanma halları qalır.

***XQ***



Xalq qəzeti .- 2025.- 23 oktyabr (№227).- S.14.